# Dərəçiçək mahalı Qərbi Azərbaycanın ecazkar bölgəsidir

**İrəvan xanlığının mahallarından biri olan Dərəçiçək Pəmbək ilə Qırxbulaq mahallarının ərazisində yerləşirdi. Hrazdan çayı bu mənzərəli yerlərə yaxın idi. Azərbaycan türkləri Dərəçiçəkdə həmişə xoş günlər keçirir, heç vaxt düşünmürdülər ki, erməni vandalları köçəri tayfalar halında ayrı-ayrı ölkələrdən bu müsəlman torpağına axışıb gələcək, haylar xalqımıza qarşı düşmənçilik mövqeyində duracaqlar.**

Mahalın ərazisindən Axta (Hrazdan) və Böyük çayın Mərmərlik adlanan qolu axıb müxtəlif tərəflərdən Pəmbək, Göyçə yaylası ilə əhatə olunmuşdu. Mahalın adı Aşağı Axtadan şərqə doğru uzanan meşəliyin içərisində Əlibəy dağının ərazisində yerləşən Dərəçiçək kəndinin adından götürülmüşdür. Gözəl təbiəti olan bu yerlər həmişə İrəvan xanlığının diqqət mərkəzində olmuşdur. İrəvan xanlarından olan Pənah xanın burada yay evi var idi. Bu, heç də təsadüfi deyildi. Şərbət bulaqlar, qıy vuran qartallar, qıvrıla-qıvrıla axan nəğməli dağ çayları, yalçın qayalıqlar, atlas geyimli düzənliklər insanı valeh edirdi.



Dərəçiçək mahalının şimalından Böyük Qarakilsəyə tərəf Teş dağları qonşu Gürcüstanın sərhədinə kimi uzanıb gedirdi. "Kitabi-Dədə Qorqud" boylarında  Dərəçiçəklə bağlı maraqlı fikirlər var. Dərəçiçəyin Misxana kəndinin şərqindəki yaylaq Altuntaxt adlanırdı. Qərbi Azərbaycan ərazisindəki Dərəçiçək sonralar Axta adlanıb.

"İrəvan əyalətinin icmal dəftərin"də Axta formasında, Qafqazın 5 verstlik xəritəsində Axta kimi qeyd edilmişdir. Toponim Oğuz tayfası olan padarların bir qolunu təşkil edən axta etnonimi əsasında formalaşmış etnotoponimdir. Quruluşca sadə toponimdir.

Rayonun ərazisi 1828-ci ilə kimi İrəvan xanlığının Dərəçiçək mahalının, 1828-1918-ci illərdə İrəvan quberniyasının Yeni Bəyazid, 1918-1920-ci illərdə Ermənistan Respublikasının Yeni Bəyazid qəzasının, 1920-1930-cu illərdə Ermənistan SSR-in Nor-Bəyazid qəzasının tərkibində olmuşdur.

Rayonun ərazisi ta qədimdən türklərin yaşayış məskəni olmuş, məscidlərdən həmişə azan səsi gəlmiş, igid oğullar at səyirtmiş, qılınc oynatmış, yaşadıqları yerləri alınmaz qalaya çevirmişlər.

XIX əsrin 20-30-cu illərində və ondan sonrakı dövrlərdə İrandan və Türkiyədən bu bölgəyə gələn hayların sayı getdikcə artmış, xaçpəsərt vandalların gəlişi ilə azərbaycanlıların xoş növrağı pozulmuşdur. Rayonun ərazisində həmin vaxtlar 36 türk kəndi olmuşdur.

Dərəçiçək mahalının Axta (Hrazdan) rayonunda 1918-1920-ci illərdə azərbaycanlılar erməni separatizminin vəhşiliyi ilə üzləşmiş, haylar Azərbaycan türklərini amansızlıqla qətlə yetirmişlər.

Ermənilərin işgəncə və zülmündən qurtulmaq üçün bir çox kəndlərin sakinləri çox çətin dağ yolları ilə İran və Türkiyəyə üz tutmuşlar. 1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra rayonun sakinlərindən çoxu yenidən Qərbi Azərbaycana, həsrətində olduqları ata-baba ocaqlarına dönmüşlər.

Sovetlər İttifaqı dövründə erməni ideologiyası yenidən davam etdirilmiş, daşnaklar öz mənfur niyyətlərinə çatmaq üçün azərbaycanlıları sıxışdırmış, onlara qarşı həmişə düşmənçilik mövqeyində durmuşlar.

Dərəçiçək mahalının Axta rayonunun azərbaycanlıları 1948-1953-cü illərdə hayların daha bir xəyanəti ilə üzləmiş, İ.Stalin, Molotov, Arutyunyan və digər ermənipərəst qüvvələrin satqınlığı ucbatından Qərbi Azərbaycanın bir parçası olan Dərəçiçək mahalının azərbaycanlılar yaşayan ərazisindən çox sayda insan deportasiyaya məruz qalmış, yük vaqonlarında Azərbaycan ərazilərinə köçürülmüşdür. 1953-cü ilin martında ermənilərin havadarı sayılan Stalinin vəfatından dərhal sonra köç prosesi dayandırılmış, soydaşlarımızın narazılığı aradan qaldırılmışdır.

Rayonun Atabars, Misxana, Əsrəkənd, Babakişi, Yuxarı Axta, Qarasu, Təzəlik, Dədəqışlaq, Gümüş, Qorculu, Təkəlik və digər kəndlərində yaşayan azərbaycanlılar həmişə haylar tərəfindən sıxışdırılmışlar.

İrəvanın Dəmirçi kənd təsərrüfatı texnikumu fəaliyyət göstərdiyi illərdə həmişə burada azərbaycanlı gənclər müxtəlif ixtisaslara yiyələnmişlər. XX əsrin 50-ci illərində texnikumda təhsil alan 2 nəfər Dərəçiçək sakini taksi maşında  əyləşib İrəvan şəhərinə gedərkən iki nəfər yaşlı ermənilərlə maşında mübahisə edirlər. Ermənilər nəyə görə 1915-ci ildə Türkiyədə türklər bizim milyon yarım millətimizi qətlə yetirib, - deyə azərbaycanlı gəncləri sorğu-sualara tuturlar. Sərxoş ermənilər əsəbi halda hər iki dərəçiçəkli gəncləri soyuq silahla qətlə yetirir, sonra cəld qapını açıb qaçırlar. Sürücü isə insaflı olub, tez taksini polis idarəsinə sürür, bu hadisəni təfsilatı ilə polisə çatdırır.

1990-ci illərdə artıq SSRİ-nin getdikcə zəifləməsi prosesi gedirdi. Xalq arasında kommunizm utopiyasına inam azalırdı. İllərdən bəri formalaşmış inzibati amirlik sistemi artıq iflic vəziyyətinə düşmüşdü. Bu dövrdə Moskvadakı erməni lobbisi M.Qorbaçovu öz toruna saldı. Ermənilər Azərbaycana qarşı ərazi iddiasına başladılar. Nəticədə 1988-ci ildə Qərbi azərbaycanlılar son nəfərinədək ata-baba yurdlarını tərk etməli oldular.

Artıq 37 ildir ki, Dərəçiçək mahalında, Mərmərlik çayının nəğməli sahillərində Azərbaycan türklərinin səsi eşidilmir. Soydaşlarımız çox tezliklə qəribsəmiş yurd yerlərinə dönəcəklər…

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2025.- 3 iyul (№ 133).- S.11.